


*Bütün planlarımız, – bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, – növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycanın tarixi Zəfəri Qarabağa yeni həyat gətirdi

**BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin ölkəmizin işğal altındakı ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul olunduğuna, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ATƏT, habelə bir sıra digər nüfuzlu beynəlxalq təşkilatların da oxşar qərar və qətnamələrinə baxmayaraq, düşmən buna məhəl qoymur, status-kvonu saxlamağa, işğalı möhkəmləndirilməyə çalışırdı.**

Son illərdə isə Ermənistan danışıqlar prosesini məqsədli şəkildə pozur, Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi. Nəhayət, 2020-ci ildə düşmən ordusu dövlət sərhədi və keçmiş təmas xətti boyu üç dəfə hərbi təxribatlara əl atdı, bu, hərbçilərimizin və mülki vətəndaşlarımızın həlak olmaları ilə nəticələndi.

İşğalçı uzun illər idi ki, mülki əhalimizə qarşı törətdiyi müxtəlif təxribatlarla işğal zonasını genişləndirməyə çalışırdı. Yeni bölgələr tutmaq iddiasını da gizlətmirdi. Azərbaycan isə hər dəfə düşmənin təxribatlarına layiqli cavab versə də, bu, ona dərs olmurdu. Elə buna görə də səbr kasası daşan və ötən il sentyabrın 27-də əks-həmlə əməliyyatları ilə Vətən müharibəsinə başlayan Azərbaycan savaşda Ermənistana biabırçı məğlubiyyət yaşatdı. Əslində, işğalçı belə bir acı nəticəni gözləmirdi. Çünki Ermənistanın siyasi və hərbi rəhbərliyi ötən 30 il ərzində güclü ordu mifi yaradaraq əhalisini aldadırdı. Bu mifi Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu darmadağın etdi və Ermənistanın qoruyub saxladığı status-kvo və təmas xəttini tamamilə dağıtdı.

İkinci Qarabağ müharibəsində ordumuz düşmənin uzun illər ərzində qurduğu, keçilməz sayılan müdafiə xətlərini qəhrəmanlıqla yararaq, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələrini sıradan çıxararaq, ötən il noyabrın 10-da döyüşləri tarixi qələbə ilə başa çatdırdı. Nəticədə düşmən kapitulyasiya aktına imza atdı. Üçtərəfli bəyanatın şərtlərinə əsasən Ağdam, Laçın və Kəlbəcər rayonları hərbi əməliyyat keçirilmədən, siyasi yolla işğaldan azad edilərək Azərbaycanın yurisdiksiyasına qaytarıldı. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını reallaşdırdı.

Vətən müharibəsindəki parlaq qələbəmizdən dərhal sonra Azərbaycan işğaldan azad edilən ərazilərimizdə bərpa-quruculuq işlərinə başladı. Ötən bir il ərzində dövlətimizin başçısı düşməndən təmizlənən rayonlara davamlı səfərləri çərçivəsində ictimaiyyət nümayəndələri ilə görüşür, Ermənistanın işğalçılıq siyasətini, vandalizmini bütün dünyaya bildirir, kənd və şəhərlərimizin qısa müddət ərzində yenidən qurulacağını, insanların öz doğma yurdlarına qayıdacaqlarını, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağını bildirir, eyni zamanda, yeni obyektlərin açılışı, habelə təməlqoyma mərasimlərində iştirak edir.

**(ardı 4-cü səhifədə)**



# Azərbaycanın tarixi Zəfəri Qarabağa yeni həyat gətirdi

**(əvvəli 1-ci səhifədə)**

Onu da qeyd edək ki, hələ müharibənin getdiyi dövrdə, yəni ötən il oktyabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili” haqqında fərman imzaladı. Bununla da işğaldan azad olunmuş ərazilərimizlə bağlı gələcək strategiya haqqında öncədən təsəvvür formalaşdı. Başqa sözlə, bu, həm də ərazilərimizin yenidən qurulması istiqamətində artıq ilkin inzibati addımların atılmasının göstəricisi idi. Həqiqətən də, müharibə bitdikdən, təcavüzkar Ermənistan kapitulyasiya sənədini imzalamağa məcbur edildikdən dərhal sonra Azərbaycan ərazilərində genişmiqyaslı tikinti-yenidənqurma işlərinə başlandı.

Dövlətimizin başçısı ölkədə iqtisadi islahatların sürətləndirilməsi ilə yanaşı, işğaldan azad olunan ərazilərimizə böyük qayıdışın ən yüksək səviyyədə təmin edilməsi üçün bütün dünyanı heyrətə gətirən layihələr reallaşdırır. Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərmandakı yeni bölgüyə 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da adlarının salınması, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm addımlar atılması da düşməndən təmizlənən torpaqların tezliklə yeni görkəm alacağından xəbər verir.

Artıq bir ildir ki, Qarabağ və Şərqi Zəngəzurda işğalçının dağıtdığı, xaraba qoyduğu yaşayış sahələrində genişmiqyası bərpa-quruculuq işləri gedir, bütün torpaqlarda həyat bərpa olunur.

Hazırda bu ərazilərdə infrastrukturun yaradılması, vaxtilə mövcud olmuş magistralların yenidən qurulması və yeni yolların çəkilməsi mühüm önəm daşıyır. Çünki bu sahənin inkişafı şəhər və kəndlərin salınmasını, məskunlaşmanın gerçəkləşdirilməsini şərtləndirir.

Bu gün Qarabağda 11 istiqamətli avtomobil yolu çəkilir, 3 hava limanı, 3 dəmiryolu tikilir, kommunikasiya stansiyaları qurulur və s. tədbirlər həyata keçirilir. “Zəfər yolu” azad olunmuş ərazilərdəki ən mühüm layihələrdən biri olmaqla Füzuli rayonundan Şuşa şəhərinə kimi uzanır. Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolları, Füzuli-Cəbrayıl-Zəngilan-Ağbənd, Horadiz-Zəngilan-Ağbənd dəmiryolları çəkilir, elektrik enerjisi, su təchizatı sistemləri yenidən qurulur. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk “ağıllı kənd”, “Dost Aqropark” layihələri icra edilir. Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanda yaşayış məntəqələrinin salınması ilə bağlı planlar hazırlanır.

Prezident İlham Əliyev bir müddət bundan əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini keçirib. Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının, Füzulinin Dövlətyarlı kəndində “ağıllı kənd” konsepsiyası əsasında yaradılacaq böyük yaşayış məntəqəsinin, Zəfər və İşğal muzeylərinin, Cənubi Qafqazda ilk dəfə tətbiq olunan “Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi” elektrik şəbəkəsinin təməlini qoyub.

Qarabağda hava yolunun açılması, avtomobil yolu və dəmiryollarının inşası, habelə Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan müasir infrastruktura malik nəqliyyat qovşağına çevrilir.

İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma layihələri çərçivəsində təkcə tikinti-quruculuq işləri deyil, kənd təsərrüfatının canlanması və inkişafı məsələsinə də ciddi diqqət yetirilir. Düşməndən təmizlənən torpaqlarda 2021-ci ilin məhsulu üçün payızlıq və yazlıq əkinlər daxil olmaqla, 8,9 min hektar sahədə taxıl əkinləri həyata keçirilməsi bunun bariz ifadəsidir. İ

Azad olunmuş rayonlarda yalnız heyvandalıq üçün deyil, əlverişli təbii-iqlim şəraitinə və zəngin bitki örtüyünə malik olduğundan arıçılığın inkişafı üçün də böyük potensial var. Artıq həmin ərazilərdəki yaylaqlara ümumilikdə 4068, o cümlədən Laçın yaylaqlarına 531 arı ailəsi olmaqla 15 arıçılıq təsərrüfatı köçürülüb.

Ötən müddətdə Qarabağın elektrik təsərrüfatının yenidən qurulması da diqqətdə saxlanılıb. “Azərenerji” ASC qısa vaxtda işğaldan azad olunan torpaqlarda mühüm infrastruktur yaradıb. Belə ki, 2021-ci ildə Qarabağ və Şərqi Zəngəzurda 3 elektrik stansiyası - 8 MVt-lıq “Gülabird” SES (Laçın), 4,8 MVt-lıq “Suqovuşan-1” və 3 MVt-lıq “Suqovuşan-2” KSES-lər yenidən qurulub, 4,4 MVT-lıq “Kəlbəcər-1” KSES-də yenidənqurma işlərinin isə tezliklə tamamlanması nəzərdə tutulub.

Bundan başqa, 110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiya - “Şuşa”, “Füzuli”, “Kəlbəcər”, “Cəbrayıl”, “Zəngilan”, “Qubadlı”, “Ağdam-1”, “Ağdam-2” tikilib və “Şükürbəyli” yarımstansiyası genişləndirilərək tam yenidən qurulub. “Şükürbəyli” yarımstansiyasından iki istiqamətdə - Şuşaya 75, Zəngilana 110 kilometr, Daşkəsəndən Kəlbəcərə 70 kilometr, Xındırıstandan Ağdama isə 35 kilometr məsafədə ikidövrəli olmaqla, 110 kV-luq ötürmə xətti çəkilib.

Yaxın perspektivdə Laçında və digər ərazilərdə 110 kV-luq yarımstansiyaların və əlaqələndirici xətlərin çəkilməsi və Qarabağın dairəvi elektrik təchizat sxeminin gerçəkləşdirilməsi planlaşdırılıb.

Gələcəkdə Cəbrayıla Ağcabədidən 130 kilometr, İmişlidən isə 132 kilometr məsafədə 330 kV-luq xətt çəkilməsi, o cümlədən Cəbrayılda və Naxçıvanda 330 kV-luq yeni yarımstansiyanın tikilməsi nəzərdə tutulub.

Prezident İlham Əliyevin Füzuliyə səfəri zamanı şəhərin və yeni yaşayış məhəlləsinin, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin, Dövlətyarlı kəndində yeni salınacaq “ağıllı kənd”in təməli qoyulub. Şuşada da yenidənqurma ilə bağlı mühüm tədbirlər həyata keçirilib, su, elektrik təchizatı infrastrukturunun qurulması diqqət mərkəzində saxlanılıb.

Cəbrayılda da bərpa işlərinə başlanılıb. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Qarabağda bərpa-quruculuq işlərinin gedişi barədə fikirlərini bildirərək, bu məsələyə Cəbrayılda da prioritet istiqamət kimi yanaşıldığını vurğulayıb. Ölkə rəhbəri burada olduğu müddətdə artıq bir neçə layihənin icrasına start verildiyini qeyd edib. Cəbrayılın təhlükəsizliyində önəmli rol oynayacaq Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışının reallaşdığını, “Araz Vadisi İqtisadi Zonası”nın, birinci yaşayış binasının təməlinin qoyulduğunu, rayonun elektrik təchizatı üçün yarımstansiyanın istismara buraxıldığını, bununla yanaşı, Laçın və Kəlbəcər rayonlarında hazırda su elektrik stansiyalarının bərpası istiqamətində tədbirlərin həyata keçirildiyini xatırladıb.

Prezident İlham Əliyevin yenicə səfər etdiyi Zəngilan rayonunda da tikinti-quruculuq işləri sürətlə aparılır. Ərazidə innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin inşası nəzərdə tutulur.

Zəngilanda müasir məktəb, uşaq bağçası, poliklinika tikiləcək, iş yerləri yaradılacaq, elektron idarəetmə olacaq. Rayondakı Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşəcək. Layihələrin icrasında Türkiyə, Çin, İsrail, İtaliya şirkətləri iştirak edəcək. Texnologiyalar sahəsində dünyanın ən inkişaf etmiş kompaniyalarından olan “Huawei-Azərbaycan” şirkəti Qarabağda “Ağıllı kənd” üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün ən son məhsul və texnologiyaları bölgədə yerləşdirəcək. “Ağıllı kənd” layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq “ağıllı tədris”, “ağıllı səhiyyə” və “ağıllı kənd təsərrüfatı” sistemləri də qurulacaq”.

Sonda onu da qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarda yeni infrastruktur və biznesin inkişafı layihələrinin həyata keçirilməsi digər dövlətlər, həmçinin türkdilli ölkələr üçün geniş imkanlar yaradır. Türkdilli dövlətlər içərisində Azərbaycan bu sahədə Türkiyə ilə daha çox səmərəli əməkdaşlıq həyata keçirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələrinin, yolların tikintisində qardaş ölkənin şirkətləri fəal iştirak edir.

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizdə turizm, kənd təsərrüfatı, dağ-mədən və hasilat sənayesi, tikinti materialları istehsalı, alternativ enerji kimi potensial sektorların yenidən canlandırılması və ölkə iqtisadiyyatına inteqrasiyası, habelə bölgədə yeni nəqliyyat-logistika dəhlizlərinin formalaşdırılması istiqamətində həyata keçirilecək tədbirlər Türkiyə, eləcə də digər türkdilli ölkələr ilə əlaqələrimizin genişləndirilməsində yeni perspektivlər vəd edir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***